# İSRAİLİN MAQEN DAVİD ADOM CƏMİYYƏTİ İLƏ AZƏRBAYCAN QIZIL AYPARA CƏMİYYƏTİ ARASINDA ANLAŞILMA MEMORANDUMU

## İKİTƏRƏFLİ ƏMƏKDAŞLIQ ÜZRƏ

1. Giriş

Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının Fundamental Prinsipləri və Nizamnaməsinə bağlı olan İsrailin Maqen David Adom Cəmiyyəti və Azərbaycan Qızıl Aypara Cəmiyyəti (bundan sonra "Partnyorlar" adlandırılacaq) qarşılıqlı anlaşma və əməkdaşlığa kömək etmək məqsədilə layihələrin icrasına dair razılığa gəldilər.

Partnyorlar öz aralarında mövcud olan əməkdaşlığı artırmaq və inkişaf etdirmək üçün səy göstərəcəklər. Bu çərçivə daxilində onlar layihələrin qiymətləndirilməsi və yeni layihələrin icrasına dair raziliq əldə etmək üçün məsul şəxslər təyin etməlidirlər.

Milli Cəmiyyət rəhbərləri partnyorların qarşılıqlı zənginləşməsi və faydalanması üçün nəzərdə tutulmuş xüsusi mübadilə proqramlarında iştirak etməlidirlər. Anlaşılma Memorandumunun imzalanmasının ardınca Partnyorlar konkret layihələrin icrasına dair razılıq əldə etmək üçün səy göstərəcəklər. Anlaşılma Memorandumunun imzalanmasının ardınca Partnyorlar konkret layihələrin icrasına dair razılıq əldə etmək üçün səy göstərəcəklər.

Partnyorlar tərəfindən birgə icra olunan layihələr və fəaliyyətlər zavallı insanlara fayda verməli və Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının inkişafına xidmət etməlidir.

**2. Partnyorların rol və məsuliyyətləri**

**İsrailin Maqen David Adom Cəmiyyəti :**

a) Azərbaycan Qızıl Aypara Cəmiyyəti ilə əməkdaşlıq üzrə məsul şəxs təyin edəcək

b) Azərbaycan Qızıl Aypara Cəmiyyətinin layihələrinə aşağıdakı sahələrdə dəstək verəcək :

- İlk yardım Programının inkişafı
- Mina riskinin azaldılması və mina riskinə dair maarifləndirmə məsələlərinə baxan proqramların inkişaf etdirilməsi
- Zavallı insanlara tibbi köməklik və xidmətlər
- Səhiyyə maarifi və sosial orientasiyalı layihələrin işlənəlib hazırlanması

c) Azərbaycan Qızıl Aypara Cəmiyyətinə texniki və maliyyə köməkliyi göstərəcək (maşınlar, kompyuterlər, telekommunikasiya avadanlıqları və sairənin alınmasında kömək)

ç) Azərbaycan Qızıl Aypara Cəmiyyətinə digər Milli Cəmiyyətlərlə (məsələn, Amerika Qızıl Xaçı) əlaqələr qurmaqda kömək edəcək.

d) Xüsusi proqramlar və ya fəaliyyətlərə (məsələn, gənclər və könüllülərlə mübadilə, könüllülərin cəlb olunduğu digər fəaliyyətlər və sairə) cəlb olunacaq.

e) Azərbaycan Qızıl Aypara Cəmiyyətinin tibb işçiləri və könüllülərinə İsraildə təlim almağa kömək edəcək.
ə) Özünün Azərbaycan Qızıl Aypara Cəmiyyəti ilə olan əməkdaşlığında Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının Fundamental Prinsiplərini əldə rəhbər tutacaq.

**Azərbaycan Qızıl Aypara Cəmiyyəti :**

a) İsrailin Maqen David Adom Cəmiyyəti ilə əməkdaşlıq üzrə məsul şəxs təyin edəcək.
b) İsrailin Maqen David Adom Cəmiyyətinə digər Milli Cəmiyyətlərlə əlaqələr qurmaqda kömək edəcək.
c) Razılaşdırılmış əməkdaşlıq sahələri daxilində İsrailin Maqen David Adom Cəmiyyətinə layihələr təqdim edəcək.
ç) Layihələrin icrası üçün lazımi insan resurslarını (işçi və könüllülər) verəcək.
d) Fəaliyyətlərin planlaşdırılması, icrası, monitorinqi və maliyyə idarəçiliyi üzrə başlica məsuliyyət daşıyacaq.
e) Xüsusi proqramlar və ya fəaliyyətlərə (məsələn, gənclər və könüllülərlə mübadilə, könüllülərin cəlb olunduğu digər fəaliyyətlər və sairə) cəlb olunacaq.
ə) Özünün İsrailin Maqen David Adom Cəmiyyəti ilə olan əməkdaşlığında Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının Fundamental Prinsiplərini əldə rəhbər tutacaq

**3. Anlaşılma Memorandumunun davam etmə müddəti:**

Bu Anlaşılma Memorandumu imzalandığı tarixdən 2017-cu ilin sonuna kimi etibarlıdır. Əgər bu Anlaşılma Memorandumuna hər hansı bir dəyişiklik, əlavələr edilməsi və ya Anlaşılma Memorandumunun vaxtının uzadılması lazım gələrsə bütün bunlar Partnyorların razılığı əsasında edilməlidir.

## ANLAŞILMA MEMORANDUMU

- İsrailin Maqen David Adom Cəmiyyəti ilə Azərbaycan Qızıl Aypara Cəmiyyəti arasında Əməkdaşlıq Müqaviləsi.
- İsrailin Maqen David Adom Cəmiyyəti və Azərbaycan Qızıl Aypara Cəmiyyəti burada iki Cəmiyyət arasında uzun müddətli əməkdaşlığa dair razılığa gəlirlər.
- Cəmiyyətlər arasında bağlanılacaq sazişlərə uyğun olaraq Maqen David Adom Cəmiyyəti Azərbaycan Qızıl Aypara Cəmiyyətinə mərhələlərlə icra olunacaq çoxillik proqramda Fövqəladə hallarda Tibbi Xidmət təlim infrastrukturunu yaratmaqda kömək edəcək.
- Proqramın hər bir mərhələsi növəbti mərhələyə keçməmişdən öncə tamamlanmalıdır.
- Maqen David Adom Cəmiyyəti programa başlamağa razılıq verir və Azərbaycanda Fövqəladə hallarda Tibb Xidmətləri tələblərinin öyrənilməsi, birgə əməliyyat metodlarının öyrənilməsi və müəyyənləşdirilməsi məqsədilə ali və orta dərəcəli rəhbər şəxslər üçün seminar keçirməyə razılıq verir.
- İş zamanı təşkilati səviyyədə fəlakətə hazırlıq və fəlakətin öhdəsindən gəlinməsinə dair kurs keçiləcək.
- Maqen David Adom Cəmiyyəti tədris sinfini təzələyəcək və onu ilk yardım təlimi üçün lazım olan vasitələrlə təchiz edəcək.
- Maqen David Adom Cəmiyyəti tərəfindən qoyulan maliyyə vəsaitindən savayı tərəflər əməkdaşlıq üzrə büdcə əldə etmək üçün əllərindən gələni edəcəklər.

**İmzalanmışdır:**

| | |
|---|---|
| **Doktor Novruzəli Aslanov** | **Doktor Noam Yifraç** |
| **Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Prezidenti** | **Sədr, İcraiyyə Komitəsi Maqen David Adom** |

**Tarix: 06.10.2014**